AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
akad. Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

*Əlyazması hüququnda*

**MƏCİDOVA ŞƏHLA ƏVƏZ QIZI**

# ƏLİ İBN ƏBU TALİBİN «DİVAN»INDA ƏXLAQİ-DİDAKTİK MOTİVLƏR

**5718.01 – Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı)**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun «Ərəbdilli əlyazmaların tədqiqi» şöbəsində yerinə yetirilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Kamandar Kazım oğlu Şərifov**<br>filologiya üzrə elmlər doktoru |
| **Rəsmi opponentlər:** | **İmamverdi Yavər oğlu Həmidov**<br>filologiya üzrə elmlər doktoru |
| | **Rza Zeynal oğlu Xəlilov**<br>filologiya üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat:** | **Bakı Dövlət Universiteti,**<br>**«Ərəb filologiyası» kafedrası** |

Müdafiə «5» fevral 2014-ci il saat $14^{00}$-da AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində filologiya elmləri doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının (FD 01.151) iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı, H.Cavid prosp., 31, VII mərtəbə, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat « 28 » dekabr 2013-cü ildə göndərilmişdir.

**FD 01.151 Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru** **Zenfira Ədhəm qızı Şıxəlibəyli**

# I. İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Mənəvi mədəniyyətin tərkib hissəsi olan əxlaq insanların həyatında böyük rol oynamış və oynamaqdadır. Əxlaq elminin təşəkkül tarixi bəşər tarixi ilə eyni olmaq etibarilə bu günə kimi onunla bərabər addımlayır. Özündə yalnız müsbət cəhətləri birləşdirən əxlaq və mənəvi dəyərlər tarixən böyük inkişaf yolu keçmiş, vaxtilə müsbət sayılan bəzi mənfi keyfiyyətləri özündən uzaqlaşdıra bilmişdir. Bu, qədim dövr xalqlarının həyatında baş verən sinfi və tarixi keyfiyyətlər olmuşdur. Əxlaq elminin formalaşmasında antik dövrdən tutmuş bu günə qədər bütün filosoflar, alimlər, dinşünaslar, pedaqoqların əməyi danılmazdır[1]. Bu mövzuda daha çox payı olan isə əxlaqi dəyərləri öz əsərləri və müsbət ədəbi qəhrəmanlarının davranış və rəftarları vasitəsilə insanlara aşılayan və onların xoşbəxtlik ideallarını işıqlandıran böyük söz ustaları – ədiblərdir.

Dünya ədəbiyyatının görkəmli nümayəndələri artıq min illərdir ki, bəşəriyyətə xidmət edərək öz arzu və ideyalarını, fikir və qayələrini, xoşbəxtlik haqqında düşüncələrini yaratdıqları əsərlərlə insanlara çatdırmağa və qəhrəmanlarının timsalında əyani surətdə göstərməyə çalışmışlar. Klassik ərəb ədəbiyyatı da bu mövzudan xali olmamış, bir çox şair və ədibləri öz əsərlərini məhz bu məqsədlə yazıb-yarat-mışlar. Bu ədiblərdən biri də həyatını, ictimai fəaliyyətini, ədəbi yaradıcılığını islam dininin yayılması və insanların islamla nicat tapması uğrunda mücadilə edən böyük mübariz Əli ibn Əbu Talibdir (ə).

Əli ibn Əbu Talibin (ə) yaşadığı dövr Ərəbistan yarımadasında dəyişiklikləri ilə təkcə dünya ədəbiyyatı tarixində deyil, eləcə də bəşər və mədəniyyət tarixində mühüm yer almış islam dininin zühur dövrüdür. Islam dini insanların bir-birinə olan münasibətlərinə və davranışlarına təsir edərək onları mənəvi kamilliyə dəvət etdi. Bu dəyişiklik ədəbiyyata da nüfuz edib bədii əsərlərin də məzmununda, vəsf obyektində özünü göstərdi.

Bütün dövrlər üçün aktuallığını itirməyən əxlaq mövzusu müxtəlif elm sahələrində tədqiq edilmiş, əhəmiyyəti dəyərləndirilmiş, cəmiyyət üçün vacibliyi, zəruriliyi qeyd edilmişdir. Özünü daha çox ədəbi əsərlərdə biruzə verən əxlaqi dəyərlər tədqiq edəcəyimiz Əli ibn Əbu Talibin (ə) «Divan»ının özəyini təşkil etməklə bu mövzunun həm klassik ərəb ədəbiyyatı, həm islam dininin ehkamlarının ədəbiyyatda inikası, həm dini şəxsiyyət kimi fəaliyyəti, həm də bədii-fəlsəfi irsinin sonrakı dövr Şərq ədəbiyyatına təsiri baxımından aktuallığını daha da artırır. Bu səbəbdən Əli ibn Əbu Talibin (ə) yaradıcılığında tərənnüm etdiyi əxlaqi-mənəvi dəyərlər bu gün də öz əhəmiyyətinə görə həyatımızda, məişətimizdə böyük rol oynayır və mənəvi kamillik kəsb etməkdə bütün insanlara ən yaxşı bələdçidir.

**Mövzunun tədqiq edilmə səviyyəsi**. Bədii ədəbiyyatda əxlaqi-didaktik motivlər bir mövzu kimi Azərbaycan ərəbşünaslığında geniş işlənmiş bir mövzudur. Xüsusən islam dininin zühurundan sonra yaranan ədəbi nümunələrin, demək olar ki, əksəriyyətində islam əxlaqı mühüm amil kimi verildiyindən tədqiqat mövzusu kimi götürülən şair və ədiblərin yaradıcılıqlarında bu mövzu bəzən geniş, bəzən də qısa şərhlərlə əks edilmişdir.

Əli ibn Əbu Talibin (ə) həyat və yaradıcılığı Azərbaycan ərəbşünaslığı və eləcə də, dini şəxsiyyət baxımından Azərbaycan ictimaiyyəti üçün maraq dairəsində olan bir mövzudur. Ömrünü, ictimai-siyasi fəaliyyətini islama həsr edən Hz. Əlinin (ə) ədəbi yaradıcılığının da aparıcı xətti islam mövzusu olmuş, onu ən gözəl və ifadəli şəkildə əks etdirmişdir. Yaratdığı nəsr və nəzm nümunələrində yer almış islam dəyərlərinin bu günümüz üçün nə qədər vacib olması Hz. Əlinin (ə) ədəbi yaradıcılığının, xüsusən də onun poetik irsi olan «Divan»ının tədqiqini daha da aktual edir. Sovet dövründə bu mövzu məlum səbəblərdən ayrıca tədqiqat obyekti olmasa da, bilavasitə klassik ərəb ədəbiyyatı və ərəb ölkələrinin tarixi kursundan öyrənilmişdir. Belə ki, ərəb ədəbiyyatı tarixini əks etdirən mənbələrdə Əli ibn Əbu Talibin

---

[1] Очерк истории этики (Под редакцией Б.А.Чагина, М.И.Шахновича, З.Н.Мелещенко). Москва: издательство «Мысль», 1969, 430 стр.; Böyük Sovet Ensiklopediyası (C.Quliyevin redaktəsi ilə). 10 cilddə. IV c., Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyası, 1980, 592 s.; Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: «Şərq-Qərb», 2005, 328 s.; Yusifov Y. Qədim Şərq tarixi. Bakı: «Şərq-Qərb», 2007, 536 s.; Библиотека всемирной литературы. т.1. Поэзия и проза древнего Востока Москва: Издательство «Художественная литература», 1973, 735 стр.; Библиотека всемирной литературы.т. 2. Махабхарата и Рамаяна. Москва: Издательство «Художественная литература», 1974, 606 стр.; Bünyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010, 154 s.

(ə) həyat və yaradıcılığı işıqlandırılmışdır[1]. Azərbaycan müstəqillik qazanan dövrdən sonra bu mövzu işlənilməyə başlamışdır.

Əli ibn Əbu Talibin (ə) həyat və yaradıcılığı yaşadığı dövrdən bəri həmişə tədqiq olunmuşdur. İstər Şərq, istərsə də Qərb tədqiqatçılarının ona həsr etdiyi tədqiqat işlərinin sayının çoxluğu Əlinin (ə) ictimai-ədəbi şəxsiyyətinə olan marağı göstərir və bu tədqiqatlar onun həyat və yaradıcılığını əks etdirən mənbələrin biblioqrafiyalarında geniş inikas edilir[2].

Əli ibn Əbu Talibin (ə) «Divan»ı əxlaqi-didaktik poeziya nümunəsi kimi Azərbaycan ərəbşünaslığında işlənilməmiş bir mövzudur. Mövzunun əhatə dairəsi geniş və zəngin olduğundan «Divan»ında mənəvi dəyərləri əks etdirən nümunələri onların ideya istiqamətlərinə görə müəyyənləşdirib ayrı-ayrı bölmələrdə verməyə çalışmışıq.

**Dissertasiya işinin obyekti**. Tədqiqat işinin obyektini Əli ibn Əbu Talibin (ə) «Divan»ında əxlaqi-didaktik motivlərin araşdırılması təşkil edir. Əli ibn Əbu Talibin (ə) digər məşhur əsəri «Nəhcül-bəlağə» ayrı-ayrı tədqiqatçılar tərəfindən öyrənilsə də, «Divan»ı tədqiq edilməmişdir. Biz Əli ibn Əbu Talibin (ə) «Divan»ında özünün əxlaqın tərkib hissəsi hesab etdiyi mənəvi keyfiyyətləri ehtiva edən beytlərini tədqiqat işində istifadə etmişik

**Tədqiqat işinin qaynaqları**. Əli ibn ƏbuTalibin (ə) dövrü ərəb-islam tarixində qızıl dövr olduğu üçün bu dövrü əks etdirən ədəbiyyat çoxdur. Həmçinin Əli ibn Əbu Talibin (ə) həyatı Məhəmməd pey-

[1] Mahmudov M. Klassik ərəb ədəbiyyati. Bakı: «Bakı Universiteti nəşriyyatı», 2001, 258 s.; Фильштинский И.М. Арабская классическая литература Москва: издательство «Наука», Главная редакция восточной литературы, 1965, 312 стр.; Фильштинский И.М. История арабской литературы V – начало X века. Москва: Глав. редак. восточ. лит., 1985, 525 стр.; Ханна аль-Фахури. История арабской литературы. В 2-х томах, т.1, Москва: Издательство иностранной литературы, 1959, 368 стр.

[2] Türkiye Diyanet Vakfı. Islam Ansiklopedisi. (35 cilddə), II c., Istanbul: Türkiye Diyanet Vakfi Islam Ansiklopedisi Genel Müdürlüğü, 1989, 563 s. İslam alimleri ansiklopedisi (17 cilddə). I c., İstanbul: 384 s. Brockelmann C. Geschichte des Arabischen litteratur (üç cilddə) (Erster supplementband), Leiden: E.J. Brill, 1937, 973 p. F. Sezgin. Geschichte des Arabischen schrifttums (üç cilddə), Band II, Leiden: E.J. Brill, 1975, 867 p. Brockelmann C. Geschichte des Arabischen litteratur (üç cilddə) (zweite den supplementbandan angepasste auflage), Leiden: E.J. Brill, 1943, 674 p..



ğəmbərin (s) həyatı ilə bütünlüklə bağlı olduğundan biz əsas ədəbiyyat kimi islam tarixini və Məhəmməd peyğəmbərin (s) həyatını əks edən ilk mənbələrdən istifadə etmişik. «Büyük İslam Tarihi», «İslam alimləri ansiklopedisi», «Məhəmməd peyğəmbərin (s) həyatı», «Əli ibn Əbu Talibin (ə) həyatı» kitabları daha çox istifadə etdiyimiz ədəbiyyatdır. Bundan başqa, Əli ibn Əbu Talibin (ə) yaradıcılığını, həyatını tədqiq etmiş orta əsr, yeni dövr və müasir ərəb filoloqlarının, alimlərinin əsərlərindən bəhrələnmişik[1]. Həmçinin Əli ibn Əbu Talibin (ə) «Divan»ının Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan əlyazmalarından da yararlanmışıq[2].

Dissertasiya işinin tədqiqat mövzusu olan «Divan»ın tərtibat tarixini araşdırmaq və dövrümüzədək gəlib çatmış ən qədim əlyazma nüsxəsini təyin etmək üçün dünya kitabxanalarının əlyazma kataloqlarından istifadə etmişik.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi ərəb ədəbiyyatının böyük ədiblərindən biri olan Əli ibn Əbu Talibin (ə) «Divan»ında əxlaqi-didaktik motivləri ehtiva edən sözləri və ifadələri araşdırmaq, mənəvi keyfiyyətləri tərənnüm edən nəzm əsərlərini tədqiq etməkdir. Bunun üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır:

- Əli ibn Əbu Talibin (ə) bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan amillərin və ilk növbədə, islam dininin rolunun qeyd edilməsi.Əli ibn Əbu Talibin (ə) bədii-fəlsəfi irsiinin araşdırılması.
- Əli ibn Əbu Talibin (ə) «Divan»ının tədqiq edilmə tarixinin

[1] Əli Hümmət Bərki, Osman Kəskioğlu. Xatəmul-Ənbiya Həzrəti Məhəmməd və həyatı (azəri türkcəsi). Ankara: Türk tarih kurumu basınevi, 1996, s. 427; Büyük İslam Tarixi. (2 cilddə), İstanbul: 1992; İslam alimleri ansiklopedisi (17 cilddə). I c., İstanbul: 384 s. حياة امير المؤمنين السيد اصغر نا طم
كفاية الطالب فى مناقب زاىه القمى، ايران، مركز انتشارات دفتر تبليغات اسلامى، ١٤١٩ق، ٥
على بن ابى طالب للكنجى الشافعى، دا الإحياء التراث الاسلامية تهران. رمضان عبد الله عبد
الهادى الجوانه البلاغية و اللغوية فى بيان امير المؤمنين على بن ابى طالب، باكو، ١٩٩٧.

[2] M-61/2534 AMEA Əİ, vərəq 4b-90b.على بن ابى طالب. ديوان ;A-1 AMEA Əİ, vərəq 1b-61a .على بن ابى طالب. ديوان ;B-376 AMEA Əİ, vərəq 114b-191aعلى بن ابى طالب. ديوان ; B-449 AMEA Əİ, vərəq 10a 75b على بن ابى طالب. ديوان.

araşdırılması.

- Əli ibn Əbu Talibin (ə) «Divan»ının əxlaqi-didaktik poeziya nümunəsi kimi araşdırılması.
- «Divan»da əxlaqi-didaktik motivlərin əsas ideya istiqamətlərinin müəyyənləşdirilməsi və bu dəyərləri ehtiva edən nümunələrin verilməsi.

**Tədqiqat işinin nəzəri və metodoloji əsaslarını** əxlaqi dəyərlərin bədii ədəbiyyatda, o cümlədən islamın zühurundan sonra yaranan klassik ərəb ədəbiyyatında inikası təşkil edir. Əxlaqi-didaktik motivlərə tarixi baxış keçirilmiş və müxtəlif xalqlara məxsus mənəvi dəyərlər müqayisə edilmişdir. Elə bir müqayisə kəsb etməyən və fərqi olmayan, bütün xalqlar və millətlər üçün ortaq olan mənəvi keyfiyyətlərin insanların həyatına müsbət təsirindən bəhs edilmişdir. Cəmiyyətdə gedən inkişafla bərabər addımlayan və öz əhəmiyyətini heç bir zaman çərçivəsinə salmayıb bu gün də vacib olan mənəviyyatın ədəbiyyatdakı bənzərsiz yeri və insanların cəmiyyətdəki mövqeyinin təyin olunmasında əxlaqi dəyərlərin əhəmiyyətli rolu vurğulanmışdır.

**Tədqiqat işinin elmi yeniliyi**. «Əli ibn Əbu Talibin (ə) «Divan»ında əxlaqi-didaktik motivlər» mövzusunda olan dissertasiya işində Azərbaycan ərəbşünaslığında ilk dəfə olaraq:

- Əli ibn Əbu Talibin (ə) bədii-fəlsəfi irsi araşdırılmışdır.
- Əli ibn Əbu Talibin (ə) «Divan»ının AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan dörd əlyazma nüsxəsinin həm ayrılıqda, həm da müqayisəli şəkildə elmi-paleoqrafik xüsusiyyətləri tədqiq edilmişdir.
- Əli ibn Əbu Talibin (ə) «Divan»ının əxlaqi-didaktik poeziya nümunəsi olduğu araşdırılmış, «Divan»ında əxlaqi keyfiyyətləri ehtiva edən şeirləri nəzərdən keçirilmiş və əsas ideya istiqamətləri müəyyənləşdirilmişdir.
- Əli ibn Əbu Talibin (ə) əxlaqi keyfiyyətlərinin islama və Peyğəmbər (s) hədislərinə əsaslandırıldığı nəzərdən keçirilmişdir.
- Əli ibn Əbu Talibin (ə) «Divan»ının tərtib olunması tarixi araşdırılmışdır.
- Əli ibn Əbu Talibin (ə) «Divan»ının dünya kitabxanalarında saxlanan əlyazma nüsxələri tədqiq edilmişdir.
- Əli ibn Əbu Talibin (ə) «Divan»ının tədqiq edilməsi araşdırılmışdır.
- Əli ibn Əbu Talibin (ə) «Divan»ının bədii xüsusiyyətlərindən



bəhs edilmişdir.

**Tədqiqat işinin praktik əhəmiyyəti**. Tədqiqat işi həm ərəb ədəbiyyatı, həm də Əli ibn Əbu Talibin (ə) həyat və yaradıcılığı baxımından böyük əhəmiyyətə malikdir. Eyni zamanda, islam əxlaqı və mənəviyyatını tərənnüm edən poeziya nümunəsi kimi də böyük maraq doğurur. Həmçinin tədqiqat işindən Hz.Əlinin (ə) yaradıcılığından bəhrələnən orta əsrlər Azərbaycan və Şərq ədəbiyyatı nümayəndələrinin yaradıcılığının tədrisi və tədqiqi üçün mənbə kimi və ali məktəblərdə ərəb ədəbiyyatı və islam tarixini öyrənmə zamanı istifadə oluna bilər.

**Tədqiqat işinin atrobasiyası**. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun «Ərəbdilli əlyazmaların tədqiqi» şöbəsində yerinə yetirilmişdir. Mövzu ətrafında səkkiz məqalə nəşr edilmişdir.

**Dissertasiya işinin strukturu**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir. İstifadə olunmuş ədəbiyyat azərbaycan, rus, türk, ərəb dili, digər dillər və veb-saytlar üzrə qruplaşdırılmış və müvafiq əlifba sırası ilə verilmişdir. Dissertasiya işinə əlavə kimi, Əli ibn Əbu Talibin (ə) «Divan»ının AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda saxlanan dörd əlyazma nüsxəsi və «Divan»ın müasir çap nüsxəsindən istifadə edilmişdir.

## II. DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın elmi yenilikləri, məqsəd və vəzifələri, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiya işinin «Əli ibn Əbu Talibin (ə) dövrü, həyatı və yaradıcılığı» adlanan **birinci fəsil** üç bölmədən ibarətdir.

**Birinci fəslin birinci bölməsi** Əli ibn Əbu Talibin (ə) yaşadığı dövrdən, bu dövrdə Ərəbistan yarımadasında baş verən ən mühüm hadisələrdən söhbət açılır, dövrün ictimai-siyasi, iqtisadi və mədəni vəziyyəti işıqlandırılır. 610-cu ildə məkkəli Məhəmməd ibn Abdullahın (s) (570-632) peyğəmbərlik missiyası ilə meydana gələn islam dini həm dünya tarixində yeni bir səhifə açdı, həm də ərəblərin həyatında yeni bir dövrün başlanğıcı oldu. Ərəbistan yarımadasının müxtəlif bölgələrində köçəri həyat sürən ərəblər Peyğəmbərin (s) rəhbər-

liyi altında ilk dəfə olaraq mərkəzləşdirilmiş vahid dövlət – Ərəb xilafəti tərkibində birləşdi. Peyğəmbər (s) ərəbləri bütün Kainatın yaradıcısı, hər şeyin xaliqi vahid Allaha ibadət etməyə çağırdı. Əvvəl bu dini etiraz və narazılıqlarla qarşılayan ərəblər get-gedə islamı və «Qur'an»ı dərk etməyə və öyrənməyə başladı. İctimai-siyasi, iqtisadi qanunları, əxlaqi prinsipləri və elmi-fəlsəfi nəzəriyyələri özündə birləşdirən «Qur'ani-Kərim» Sadr əl-islam dövrünədək adət-ənənələrindən və qəbilə nizamından başqa yazılı qanun kitabları olmayan ərəblərin əsas qanunu oldu. İslam insanların qırğınına, dağıntılara, qan tökülməsinə, qüvvələrin zəiflədilməsinə səbəb olmaqdan başqa heç bir müsbət nəticə verməyən qəbilələrarası müharibəyə son qoydu. İslam dini bədii ədəbiyyata da dərindən təsir edərək insanların tərbiyələnməsində, şüurların itiləşdirilməsində və adamların inkişaf edərək ali bir səviyyəyə yüksəlməsində böyük rol oynamışdır.

Əli ibn Əbu Talibin (ə) dövrü ərəb tarixinin ən şanlı səhifələrindən biridir. Bu dövrün ədəbi irsi məhz bu xüsusiyyətlərinə görə rəngarəng olmuş və islam ədəbiyyatının sonrakı mərhələləri üçün əsas mənbə rolunu oynamış, klassik şeirin ən gözəl cəhətlərindən yaradıcı şəkildə istifadə olunan və bəlağətli nitqin ən incə lakonikliyini özündə əks etdirən bu nəzm və nəsr nümunələri ərəb ədəbiyyatında özünəməxsus yer tutmuş, nəzm və nəsri forma və məzmunca yüksək bir zirvəyə qaldırmışdır.

**Bu fəslin ikinci bölməsi** Əli ibn Əbu Talibin (ə) həyatında baş verən hadisələr xronoloji ardıcıllıqla verilir. Əli ibn Əbu Talib (ə) 600-ci ildə Məkkədə dünyaya gəlmişdir. O, yeganə bəşər övladıdır ki, ona Müqəddəs Kəbə divarları arasında dünyaya gəlmək nəsib olmuşdur.

Hz. Əli beş yaşında olarkən Hz.Məhəmməd (s) bir gün ona vaxtı ilə atalıq etmiş və çətin güzaranı olan əmisinə kömək məqsədi ilə digər əmisi Abbasa (m.566–h.32/m.654) onun uşaqlarından götürüb saxlamağı söyləyir. Abbas ibn Əbdül-Müttəlib Cəfəri (m.588–h.8/ m.629), Məhəmməd peyğəmbər (s) isə Əlini (ə) öz evinə gətirir. Beləcə Əli (ə) hələ uşaq ikən Məhəmməd peyğəmbərin (s) evində böyüyür, həmin vaxtdan etibarən onun təlim və tərbiyəsi ilə Məhəmməd peyğəmbər (s) məşğul olur. İslamın ilk illəri Məhəmməd peyğəmbərlə (s) bərabər Əli (ə) üçün də çətin və məşəqqətli keçmişdir. Onlar bütün bu çətinliklərə əsl mətanət və dözüm nümayiş etdirərək bütpərəstlərə qalib gəlmişlər. Daha sonra baş verən müharibələrdə onun misilsiz rolu olmuşdur. İslam tarixində Əli (ə) Təbuk döyüşündən



başqa bütün döyüşlərdə iştirak etmişdir. Bu döyüşdə o, Peyğəmbərin (s) ailəsinə baxmaq üçün iştirak etməmişdi. «Lə fəta illə Ali, lə seyfə illə Zulfaqar» («Əlidən başqa igid, Zülfüqardan başqa qılınc yoxdur») kəlamı məhz onun döyüş meydanlarında göstərdiyi şücaət və qəhrəmanlığından yaranmişdir.

Əli ibn Əbu Talibin (ə) altmış (və ya altmış bir) illik həyatı, yaratdığı dərin mənaya malik zəngin ədəbi irsi, möhkəm iradə, müqəddəs amal uğrunda apardığı davamlı mücadilələrdə göstərdiyi qəhrəmanlıq, sadəlik, mərdlik və bir çox müsbət cəhətlərlə bu gün də örnəkdir, ədaləti və səxavəti nümunədir. Bəzən xalq arasında onun haqqında mübaliğəli, real olmayan rəvayətlər söylənsə də, «dəqiq olan xüsusiyyət onun Qur'an və sünnəyə tam mənasında bağlılığı, dünyəvi işlərdən uzaq qalmağı diləyən, islam tarixinin Cəməl, Sıffin və Nəhrivan kimi talesiz döyüşlərin sonunda göz yaşı töküb rəqiblərinin iman və hidayətləri üçün dua edəcək qədər həssas təqva sahibi və idealist bir mömin olmasıdır»[1].

«Əli ibn Əbu Talibin (ə) yaradıcılığı» adlanan **birinci fəslin üçüncü bölməsi** Əli ibn Əbu Talibin (ə) bədii-fəlsəfi yaradıcılığının araşdırılmasına həsr edilmişdir. Hz. Əliyə (ə) mənsub olan əsərlər nisbətən sonrakı dövrlərdə tərtib olunduğuna görə bəzən filoloqların fikir ayrılığına səbəb olmuşdur. Onların bəziləri bu əsərlərin ona mənsub olmadığını, digərləri isə, əksinə, bu fikrə qarşı çıxaraq dil və üslub baxımından Hz. Əliyə (ə) mənsub olduğunu söyləyirlər. Lakin yenə də ərəblərin şeir sahəsində nə qədər dəqiq və səlis olduqlarına, poeziya sənətinə sonsuz incəliklə yanaşmalarına istinad edərək və Hz. Əli (ə) dövrünə yaxın mənbələrdə Əlinin (ə) şeiriyyəti və mövcud olan şeirləri və kəlamları haqqında olan məlumatlara söykənərək bu əsərlərin həqiqətən də Hz. Əliyə (ə) mənsubluğuna inanmaq olar. Hz. Əlinin (ə) yaradıcılığını öz mövzu və qayəsinə görə iki qismə ayırmaq olar. Birinci qismə onun islam uğrunda mücadilələrini əks etdirən əsərləri, ikinci qismə isə islam və Peyğəmbər (s) hədislərinə əsaslanan hikmətli kəlamları daxildir.

Ərəb-islam ədəbiyyatı tarixində nadir şəxsiyyətlərdən biri də şöhrətinin hüdudu olmayan, gözəl xətib, filosof, şair Əli ibn Əbu Talibdir (ə). Onun xütbə, məktub, hikmət və nəsihətlərinin bədii nəsrin

---

[1] Türkiye Diyanet Vakfı. Islam Ansiklopedisi. (35 cilddə), II c., Istanbul: Türkiye Diyanet Vakfı Islam Ansiklopedisi Genel Müdürlüğü, 1989, s. 374.

yaranmasında böyük rolu olmuş, ədəbiyyatda bədii sözün qüdrətinin xüsusi kəsər və gözəllik kəsb etməsinə təsir göstərmişdir. Bu nəsr nümunələri onun islam dininin qələbəsi uğrunda apardığı mübarizələrlə bağlı meydana gəlmiş, ictimai-siyasi və mədəni həyatı əhatə etmişdir.

Həzrət Əlinin (ə) iki min beyti əhatə edən bir «Divan»ı və «əz-Zeynəbiyyə» qəsidəsi bizə gəlib çatmışdır. «İslam Ansiklopedisi»ndə K.Brokelman və F.Sezginin kataloqlarına əsasən «Anvar əl-uqul min əş'ar vasiyy rasul», «Qasidətu əz-zəburiyyə», «Qasidətu əl-cəlcəlutiyyə», «Cənnətu əl-əsma» adlı əsərlərin də ona mənsub olduğunu yazırlar[1]. Sufizmə aid kiçik həcmli «Vücudiyyə» adlı əsərin müəllifinin də Hz. Əli (ə) olduğunu qeyd edirlər[2]. Dünyanın müxtəlif ölkələrinin kitabxanalarında daha çox «Miə kəlimə» (türkcə «Yüz kəlimə», farsca «Sad kəlimə»), «Nəsr əl-ləli» adlı əsərləri yayılmışdır. Hər iki əsər müstəqil olmayıb, Əlinin (ə) hikmətli sözlərini ehtiva edir. Çox güman ki, bu kəlamlar «Nəhcül-bəlağə»dən və ya «Divan»dan seçilərək bir toplu şəklinə salınmış və belə ad verilərək yayılmışdır. Bundan başqa, onun müdrik kəlamlar və dini moizələri əhatə edən on iki nəsr əsərinin sahibi olduğunu söyləyirlər. Lakin bu nəsr əsərlərindən dövrümüzədək yalnız biri – onun onuncu törəməsi əş-Şərif ər-Radi (970–1016) tərəfindən tərtib edilən «Nəhcül-bəlağə» əsəri gəlib çatmışdır.

Bəzi mənbələrdə «Anvar əl-uqul» adı ilə göstərilən şeirlər toplusu Hz. Əlinin (ə) əlimizdə olan «Divan»ıdır. Hicri VI əsrin görkəmli ədəbiyyatşünası, alimi, ədibi Qütbəddin əl-Keydəri (tam adı Məhəmməd ibn Hüseyn ibn Həsən əl-Beyhaqi ən-Nişapuridir) tərəfindən tərtib edilmişdir. Bu ədib haqqında çox az məlumat vardır, yalnız onun h.576-cı ildə (m.1180) yaşaması haqqında məlumat verilir. Qütbəddin əl-Keydəri Hz.Əli (ə) «Divan»ını üç kitabdan tərtib etdiyini vəözünün kitabı belə adlandırdığını yazır. Əl-Beyhaqinin yazdığı və tərtib etdiyi əsərlər siyahısında «Hadıqatul-əniqa» («Nəzakət (hərfi: zəriflik, gözəllik) bağçası») adlı kitab da yer almışdır ki, bu kitabda da yenə də Hz. Əli (ə) hikmətini və moizələrini ehtiva edən şeirlərini toplayıb tərtib etdiyi söylənilir. «Divan»ın türkcəyə tərcüməsinin mü-

---

[1] Türkiye Diyanet Vakfı. Islam Ansiklopedisi. (35 cilddə), II c., Istanbul: Türkiye Diyanet Vakfı Islam Ansiklopedisi Genel Müdürlüğü, 1989, s. 375.

[2] Персидские и таджикские рукописи Института Востоковедения Российской Академии Наук (под редакцией Н.Д.Миклухо-Маклая) (краткий алфавитный каталог). В 2-х томах. т. I, New York: Norman Ross Publishing Ins., 1998, стр. 600



qəddiməsində məhz bu əsərin genişləndirilərək «Anvar əl-uqul» adlandırıldığı vurğulanır.

«Zeynəbiyyə qəsidəsi» 58 beytdən ibarətdər. «Cəlcəlutiyyə qəsidəsi» isə 60 beytdən ibarətdir. Cəlcəlutiyyə sözünün mənası xeyrə cəlb və şəri rəddetmə deməkdir və çox zaman «dəvət əl-cəlcəlutiyyə» söz birləşməsi şəklində işlənir. Bu qəsidədə Əsmayi-hüsnənin və Allahın digər sirlərindən bəhs edilir. Avropa və latın qrafikalı mənbələrdə bu əsərin «Qasidatu əl-culculutiyyə» transliterasiyasında verilməsi bir az yanlışlığa yönəldir. Belə ki, ərəb ədəbiyyatında bu adda əsər yoxdur. «Qasidatu əl-culculuyyə» adlı əsər Əmr ibn əl-Asa mənsubdur və bu əsərin Hz. Əli (ə) ilə əlaqəsi var. Əmr ibn əl-As bu əsəri Müaviyənin ona ünvanladığı məktuba cavab olaraq yazmışdır. Bu qəsidəsində o, Əli ibn Əbu Talibin (ə) mərd keyfiyyətlərindən bəhs edir. Tarixdən də məlum olduğu kimi, Əmr ibn əl-As ölümünə yaxın Hz. Əliyə (ə) qarşı etdiklərinə peşman olmuş və günahlarını etiraf etmişdir. Çox güman ki, bu qəsidəni o, həmin ərəfədə yazmışdır. «Zəburiyyə qəsidəsi»nin adının çəkilməsindən başqa heç bir məlumata rast gəlmədik.

«Miə kəlimə» adı ilə məşhur olan Hz. Əli kəlamlarının toplusunu tərtib edənin məşhur ərəb şairi və ədibi Əbu Osman Amr ibn Bahr əl-Bəsri əl-Cahiz (h.159/m.775–h.255/m.868) olduğunu görkəmli türk alimi Əbdülbakı Gölpınarlı (1900–1982) «Nəhcül-bəlağə»yə yazdığı müqəddimədə söyləyir[1]. Yenə orada bu əsərin sonralar Əbu Əliyyi Təbərsi (h.573/m.1178) tərəfindən əlifba sırası ilə otuz fəslə ayrılaraq «Nəsr əl-ləli» adlandırılaraq yayıldığını yazır. Qeyd etmək lazımdır ki, 1485-ci ildə nəsrlə yazılmış böyük dibaçə ilə bu əsərin özbəkcəyə poetik tərcüməsini məşhur özbək şairi Əlişir Nəvai (1441-1501) etmişdir[2].

Hz. Əlinin (ə) hikmətli sözləri və kəlamları toplanan «Qurər əl-hikəm və durər əl-kələm» adlı başqa bir toplusu da vardır ki, buraya onun 11500 (bəzi mənbələrdə 10500) kəlamı daxildir. Bunu toplayan Nasihuddin Əbdülvahid ibn Məhəmməd Təmimiyyi əl-Amididir (?–h.588/m.1192).

Təbii ki, Hz.Əlinin (ə) günümüzədək gəlib çatmış və «Divan»ına

---

[1] Əli ibn Əbu Talib (ə). Nəhcül-Bəlağə (tərcümə edən Ə.Gölpınarlı). Tehran: 1995, s. 13.

[2]Собрание восточных рукописей Академии Наук Узб. ССР, т.2, Ташкент: 1954, стр.280.

nisbətən daha geniş yayılmış və çoxsaylı şərhlər yazılmış əsəri «Nəhcül-bəlağə»dir. «Nəhcül-bəlağə»yə daxil olan əsərləri tərtib etmiş əş-Şərif ər-Radinin tam adı belədir: Əbu əl-Həsən Məhəmməd ibn Əbu Əhməd əl-Hüseyn ibn Musa ibn Məhəmməd ibn Musa ibn İbrahim ibn Musa ibn Cəfər əs-Sadiq ibn Məhəmməd əl-Baqir ibn Əli Zeyn əl-Abidin ibn əl-Hüseyn ibn Əli ibn Əbu Talib.

Əş-Şərif ər-Radi h.359/m.970-ci ildə Bağdadda anadan olmuş, ədəbiyyatda çox yüksək mövqe qazanmış, h.383/m.993-cü ildə Bağdad Əyanları cəmiyyətinin xidmətini, öz üzərinə götürmüşdür. O, h.406/m.1016-cı ildə Bağdadda vəfat etmiş və Kərxdəki evində dəfn olunmuşdur.

Ədəbiyyat aləmində əş-Şərif ər-Radi təkcə bu əsəri tərtib etməklə deyil, həmçinin gözəl şair, dilçi kimi məşhur olmuşdur. Onun atası Tahir əl-Musəvinin və iki oğlu – ər-Radi və əl-Murtədanın (h.355/-m.967–h.436/m.1044) Bağdadda böyük nufuza malik olduqları və ədəbi məclisləri təşkil etdikləri qaynaqlarda vurğulanır[1].

Əş-Şərif ər-Radi Həzrət Əlinin (ə) xütbələrini, məktublarını və hikmətli sözlərini tərtib edərkən dövründən əvvəlki qaynaqlara bələd olmuşdur. O, həmçinin öz dövrünün ədəbi proseslərini izləmiş, inkişaf etmiş xalqların ədəbiyyatı, tarixi ilə tanış olmuş, onların elm və mədəniyyət aləmində əldə etdikləri nailiyyətləri dərindən mənimsəmişdir. Orta əsr mənbələri onun qardaşı əş-Şərif əl-Murtədanın kitabxanasında səksən min cild kitab olması haqqında bilgilər verir. «Mucəm əl-buldən» bu kitabxananın dünyada misilsiz olduğunu, kitabların elmi biliklərlə zəngin olduğunu göstərir. Ər-Radi kitabı tərtib edərkən dövrünün iki böyük kitabxanasından istifadə etmişdir ki, bunlardan biri qardaşı əl-Murtədanın, digəri Məmun ər-Rəşid (h.170/ m.786–h.218/m.833) tərəfindən təsis edilmiş «Beyt əl-hikmə» kitabxanasıdır[2].

Əş-Şərif ər-Radi «Nəhcül-bəlağə»ni yaranmasından dörd yüz il sonra tərtib etmişdir. Bu kitab iki yüz otuz doqquz xütbəni, yetmiş doqquz məktubu və dörd yüz yetmiş altı hikmətli sözü əhatə edir. O,

[1] Шидфар Б.Я. Абу-ль-Аля – великий слепец из Маарры.– Абуль-Аля аль-Маарри. Избранное. Москва: издательство «Художественная литература», 1989, s. 8

[2] Məhəmməd Baqir Saivər. Həzrəti Əli (ə) kəlamlarının cazibəsində – «İmam Əli (ə) və «Nəhcul-bəlağə» konfransının materialları, Bakı: 2006, s. 32



kitabı üç hissəyə ayırmış, I hissəyə xütbələri, II hissəyə məktubları, III hissəyə hikmətli sözləri daxil etmişdi[1].

«Əli ibn Əbu Talibin (ə) «Divan»ı dünya kitabxanalarında və «Divan»ının əlyazma nüsxələrinin elmi-paleoqrafik xüsusiyyətləri» adlanan **ikinci fəsil iki bölmədən** ibarətdir. **Birinci bölmə** «Divan»ın dünya kitabxanalarında qorunan əlyazma nüsxələri və «Divan»ın tədqiqindən bəhs edir. Əli ibn Əbu Talibin (ə) «Divan»ının tərtibat tarixini və ən qədim əlyazma nüsxəsini təyin etmək üçün müxtəlif ölkələrin əlyazma fondlarında qorunan nüsxələr nəzərdən keçirilmişdir. Məlum oldu ki, İraq muzeyində saxlanılan doqquz əlyazma nüsxəsinin biri Qütbəddin Məhəmməd ibn əl-Beyhəqi tərəfindən köçürülən (h.576/m.1180 yaşayıb) nüsxədir. İkinci nüsxə (katib Məhəmməd ibn Nəcid) h. 930/m.1554-ci ilə aid olan nüsxədir. Üçüncü nüsxə (katib Mahmud ibn Nizaməddin Muhyəddin) h.1035/m.1625-ci ilə, dördüncüsü (katibi məlum deyil) əvvəlindən bir az naqis, h.11-ci/ m.17-ci əsrə aiddir. Beşincisi (katib Fadl Nizam əş-Şərifi) h.1082/m.1671-ci ilə, altıncısı (katibi məlum deyil) h.1123/ m.1711-ci ildə üzü köçürülmüşdür. Qalan üç nüsxə isə h.12-ci/m.18-ci əsrə aiddir[2]. The Chester Beatty kitabxanasında qorunan əlyazma nüsxəsi m.1521-ci ildə Məhəmməd Mumin ibn Abdulla əl-Mərvərid tərəfindən köçürülən nüsxədir[3]. Paris Milli kitabxanasında saxlanılan «Divan»ın əlyazmanın tarixi və katibi haqda (yalnız əlyazmanın həcmi və şifri qeyd edilib) heç bir məlumat yoxdur[4]. Mövlana muzeyində qorunan «Divan»ın iki nüsxəsindən biri kağızına görə (katibi məlum deyil) h.VIII-IX/m.XIV-XV əsrə aid edilir, digəri isə «Divan»ın Salahi (ölüb h.1196/m.1782) tərəfindən türk dilinə edilmiş

[1] على بن ابى طالب (ع). نهج البلاغة مؤسسة انتشاران فقيه، تهران، ۱۳۴۰ص.

[2] مخطوطات الادب فى المتحف العراق، منشورات معهد المخطوطاتالعربية. الكويت، ۱۴۰۶ – ۱۹۸۵

[3] The Chester Beauty Library. A handlistt of the arabic manuscripts The Chester Beauty Library. A handlistt of the arabic manuscripts (səkkiz cilddə), V volume, SS, Dublin: Hodges Figges & co. Ltd, 1962, s.65.

[4] Index General des manuscripts arabes musulmans de la bibliol'heque Nationale de Paris, Editions du Centre National de la Recherche Scientifique. 13 Quai Anatole France, Paris 7[e]: 1953, s. 301 2.

poetik tərcüməsidir[1]. Salahiyə aid bu tərcümənin digər nüsxəsi Qotsun kataloqunda vardır[2]. Qahirədə nəşr olunmuş «Farsdilli əlyazmalar kataloqu»nda «Divan»ın h.908 (m.1502)-ci ildə Şəmsəddin Məhəmməd ibn Əli Əlaəddin Astrabadi tərəfindən üzü köçürülmüş nüsxəsi və üç şərhi vardır. Bu şərhlərdən biri h.926-ci (m.1520) ildə tamamlamış Hüseyn ibn Muiniddin əl-Mübədiyə, digəri h.969-cu (m.1562) ildə tamamlamış İbrahim Süleymana mənsubdur, üçüncüsünün tarixi və şərhçisi məlum deyil[3]. Kral Səud Universitetinin əlyazmalar fondunda qorunan nüsxə h. 973/m.1565(1566)-ci ildə katib Mahmud ibn Qasim tərəfindən köçürülmüşdür. Köçürdüyü nüsxə h.870/ m.1465 (1466)-ci ilə aid farsca şərhləri əl-Mübədiyə aiddir[4]. ABŞ-ın Miçiqan Universitetində qorunan İslam Əlyazmaları arasında olan nüsxə h. 14 rəcəb 1063-cü/ m.10 iyun 1653-cü ildə köçürülüb tamamlandığını nüsxənin katibi Əbul-Qasim ibn Can ibn Bəz qeyd edir[5]. «Divan»ın bir nüsxəsi də Londonda saxlanan İslam və Hind İncəsənəti auksionuna mənsub əlyazma nüsxəsidir. Farsca tərcüməsi verilmiş bu əlyazma nüsxəsinin m.15-ci əsrin ortası–16-cı əsrin əvvəllərinə aid olduğu qeyd edilir[6]. XVIII əsrdən etibarən olan nüsxələr isə daha çox «Divan»ın çap variantlarıdır. Karl Brokelman özünün məşhur kataloqunda «Divan»dan bəhs edərkən Sa'dəddin Müstəqimzadənin (h.1131/m.1719–h.1202/m.1787) şərhinə əsasən bu «Divan»ın əş-Şərif əl-Murtədanın tərtib etdiyini qeyd edir[7]. Əş-Şərif əl-Murtədanın Hz.Əlinin (ə) törəməsi olduğunu, bu ailənin şeir-sənətə,

[1] Mevlana Müzesi Yazmaları Kataloğu (4 cilddə), III c., Ankara: Türk Tarih Kurumu Basımevi, 1972, s. 48-51.
[2] M. Göts. Türkische Handschriften Teil 2, $XIII_2$, Wienbaden: Franz Steiner Verlag, GMBH, 1968, s. 213-214.

[3] فهرس المخطوطات الفارسية القسم الاول، القاهرة، مطبعة دار الكتب، ۱۹۶۶، ۳۵۸ص.

[4] http://makhtota.ksu.edu.sa/makhtota/4505/1#.UqC9BtIW1GY
[5] http://www.lib.umich.edu/islamic/archives/3603
[6] www.bonhams.com/anctions/20834/lot/199/.

[7] Brockelmann C. Geschichte des Arabischen litteratur (üç cilddə) (Erster supplementband), Leiden: E.J. Brill, 1937, s. 39.



xüsusən Əlinin (ə) ədəbi irsinə olan hədsiz marağını, qardaşı əş-Şərif ər-Radinin Əlinin (ə) digər əsəri «Nəhcül-bəlağə»də olan nəsr əsərlərini toplayıb tərtib etməsini, «Divan»ın Əli (ə) dövründə deyil, sonrakı dövrlərdə tərtib edildiyini nəzərə alsaq, «Divan»ın da əş-Şərif əl-Murtədanın tərtib etdiyini ehtimal etmək olar. Bunlara əlavə etmək lazımdır ki, «Divan»ın müxtəlif ölkələrin kitabxanalarında və şəxsi kolleksiyalarda qorunan və bizə məlum olmayan nüsxələri də mövcüddur və onlarda bu ehtimalı təsdiq və ya təkzib edə bilən məlumatların olması da istisna deyil.

**İkinci fəslin ikinci bölməsində** «Divan»ın AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Əlyazmalar fondunda qorunan dörd əlyazma nüsxəsinin həm ayrılıqda, həm də müqayisəli şəkildə paleoqrafik xüsusiyyətl araşdırılır. Orta əsr əlyazma kitabları paleoqrafik baxımdan, yəni kağızı, cildi, xətt növləri, tərtib prinsipləri və başqa xüsusiyyətləri ilə bir-birindən fərqli olduğuna görə bu kitabların paleoqrafik xüsusiyyətlərinin araşdırılması, hər şeydən əvvəl, yazı tarixi və onun qrafik formalarının inkişaf qanunauyğunluqlarını öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Bununla bərabər, əlyazma abidələrinin paleoqrafik xüsusiyyətlərinin öyrənilməsi orta əsr mətnlərinin oxunması, bu və ya digər əsərin müəllifinin, onun dövrünün və əlyazma kitabının yazıldığı və ya köçürüldüyü yerin müəyyənləşdirilməsi baxımından böyük elmi əhəmiyyət kəsb edir. Əli ibn Əbu Talibin (ə) tədqiqata cəlb edilmiş «Divan»ının ən mükəmməl və maraqlı nüsxəsi M-61/2534 şifri altında saxlanılan əlyazma toplusunun 4b-90b vərəqlərini əhatə edir[1].

«Divan»ın bu nüsxəsinin dəyərli cəhətlərindən biri də ondan ibarətdir ki, bu əlyazma toplusu dövrünün tanınmış tarixçisi, ədəbiyyatşünası və şairi Nəibus-səltənə Abbas Mirzənin oğlu, Fətəli şah Qacarın nəvəsi Bəhmən Mirzənin (1811-1884) sifarişi ilə hazırlanmışdır. Mətnin haşiyələrində verilmiş ayrı-ayrı beytlərin şərhi, poetik tərcüməsi və nüsxə fərqləri ilə yanaşı, çoxlu miqdarda hekayətlər yazılmışdır. Həmin hekayətlər «Divan»ın bu və ya digər hissələrində qeyd edilmiş hadisələr və şəxsiyyətlərlə bağlıdır.

Əli ibn Əbu Talibin (ə) «Divan»ının ən mötəbər əlyazma nüsxələrindən biri də XIX əsrin tanınmış Azərbaycan alimi, pedaqoqu və ki-

[1] M-61/2534 AMEA Əİ, vərəq 4b-90b علی بن ابی طالب. دیوان

tabşünası Əbdülqəni Məhəmməd oğlu Nuxəvi Xalisəqarızadə (1817-1879) tərəfindən tərtib edilmişdir. «Divan»ın Əbdülqəni Nuxəvi Xalisəqarızadə tərəfindən tərtib olunmuş bu nüsxəsi əlyazma toplusunun 1b-61a vərəqlərini əhatə edir[1]. Əlyazma toplusunun 1a vərəqində üçbucaq şəklində aşağıdakı ünvan yazılmışdır. Ünvanın bir sətri qara mürəbkəblə, başqası isə qırmızı mürəkkəblə yazılmışdır. Bu da yazıya xüsusi estetik gözəllik verir. Əbdülqəni Nuxəvi Xalisəqarızadə Əli ibn Əbu Talibin (ə) «Divan»ının bu nüsxəsini bədii tərtibatla hazırlamağa çalışmışdır.

Əli ibn Əbu Talibin (ə) «Divan»ının tədqiqata cəlb edilmiş bu nüsxəsində onun türk dilinə XVI əsr tərcüməsi də verilmişdir. «Divan» və onun türk dilinə tərcüməsindən ibarət əlyazma kitabı AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yeganə nüsxədir. Bu nüsxə 1877-ci ildə Şəkidə Əbdülqəni Nuxəvi Xalisəqarızadə tərəfindən köçürülərək xüsusi gözəl estetik zövqlə hazırlanmışdır. «Divan»ın bu tərcüməsi çağdaş tərcümə sənətindən fərqli bir üslubda həyata keçirilmişdir. Belə ki, Ərəb xilafətinin əvvəllərindən başlayaraq ərəb dilinə edilən tərcümələr hərfi və sərbəst tərcümə prinsiplərinə əsaslanmışdır.

Əli ibn Əbu Talibin (ə) «Divan»ının tədqiqata cəlb edilmiş başqa bir nüsxəsi B-449 şifrli əlyazma toplusunun 10a-75b vərəqlərinə yazılmışdır[2]. «Divan»ın digər nüsxələrindən fərqli olaraq bu əlyazmasında mətn tam deyildir. Belə ki, «Divan»ın əvvəlindən bir vərəq, yəni 12 beyt düşmüşdür. «Divan»ın M-61 şifrli əlyazmasında olduğu kimi, bu nüsxəsində də mətn ayrı-ayrı hissələrə bölünərək həmin hissələrin məzmununa uyğun olaraq müxtəlif başlıqlar bəzən bir beyti, bəzən iki beyti, bəzən üç beyti, bəzən dörd beyti, bəzən də böyük bir parçanı əhatə edir. Onu da qeyd etmək lazımdır ki, bu başlıqlar fars dilində verilmişdir.

Bu nüsxə üzərində «Divan»ın başqa əlyazmaları ilə müqayisəli tekstoloji araşdırmalar aparmış naməlum filoloq mətndən düşmüş və təhrif olunmuş sözləri müəyyənləşdirirək mətnin haşiyələrində qeyd etmişdir. Bununla da o, «Divan»ın bu nüsxəsində yol verilmiş təhrifləri aradan qaldırmışdır. Mətnə yazılmış sonluqda qeyd edilir ki, Əli

[1] A-1 AMEA Əİ, vərəq 1b-61a علی بن ابی طالب. دیوان.
[2] B-449 AMEA Əİ, vərəq 10a 75b علی بن ابی طالب. دیوان.



ibn Əbu Talibin (ə) «Divan»ı hicri 1257(1841)-ci ildə Mir İbrahim ibn Hüseyn əl-Musəvi ət-Təbrizi tərəfindən köçürülmüşdür.

Əli ibn Əbu Talibin (ə) poetik irsinin öyrənilməsi baxımından əhəmiyyətli olan əlyazma abidələrindən biri də B-376 şifri altında saxlanılır[1]. Bu əlyazma toplusu nun 114b-191a vərəqlərini əhatə edən Əli ibn Əbu Talibin (ə) «Divan»ının mətni öz mükəmməlliyi baxımından bundan əvvəlki nüsxələrdən geri qalmır. «Divan»ın əlyazmaları üzərində aparılan araşdırmalar göstərir ki, ona müraciət edən hər bir filoloq, Əli ibn Əbu Talib (ə) şəxsiyyətini göz önünə gətirərək onun mətninə həssaslıqla yanaşmış və imkan daxilində onun poetik irsini hər cür əyintilərdən, təh.riflərdən, əlavələrdən və qısaltmalardan qorumağa çalışmışdır. Buna görə də onun «Divan»ına müxtəlif məqsədlərlə müraciət edən ayrı-ayrı filoloqlar, hər şeydən öncə, onun müxtəlif nüsxələrini əldə edərək mətni üzərində müqayisəli tekstoloji araşdırmalar aparmışlar. Bu araşdırmalar nəticəsində aşkar edilən nüsxə fərqləri əsas mətn kimi seçilmiş nüsxənin haşiyəsində qeyd edilmiş, mətnə şərh və qısa izahlar yazılmışdır. Bu baxımdan tədqiqata cəlb edilmiş Əli ibn Əbu Talibin (ə) «Divan»ının bu nüsxəsi də böyük maraq doğurur. «Divan»ın bu nüsxəsi də onun başqa əlyazmaları ilə müqayisəli şəkildə araşdırılaraq onların mətnləri arasında aşkar edilən nüsxə fərqləri bu nüsxədə mətnin haşiyəsində qeyd edilmişdir.

«Divan»ın bu nüsxəsinin haşiyələrində nüsxə fərqləri ilə yanaşı, mətnin ayrı-ayrı hissələrinə ərəb və fars dillərində şərhlər yazılmışdır. Bununla bərabər, «Divan»ın ayrı-ayrı hissələrində, orta əsrlərin şərti mətnşünaslıq işarələri ilə mətnin daxili şərhləri də verilmişdir. «Divan»ın mətni narın nəsx xətti ilə ağ, filiqranlı Avropa istehsalı olan kağıza yazılmışdır. Əsərin mətninə yazılmış sonluqda qeyd edilir ki, «Divan» hicri 1257(1841)-ci ildə şaban ayında köçürülmüşdür. Mətni köçürən katibin adı isə yazılmamışdır. Əlyazma kitabının cildi karton üzərinə çəkilmiş qəhvəyi rəngli dəridir.

Əli ibn Əbu Talibin (ə) tədqiqata cəlb olunmuş dörd ədəd əlyazma və bir ədəd çap nüsxələri üzərində aparılan müqayisəli tekstoloji araşdırmalar nəticəsində mətndə yol verilmiş təhriflər, onların növləri və yaranma səbəbləri aydınlaşdırılmışdır. Bununla bərabər, tekstoloji

[1] B-376 AMEA Əİ, vərəq 114b-191a علی بن ابی طالب. دیوان.

araşdırmaların tərkib hissəsini təşkil edən «Divan»ın əlyazma nüsxələrinin elmi-paleoqrafik xüsusiyyətləri də öyrənilmişdir.

Beləliklə, Əli ibn Əbu Talibin (ə) «Divan»ının əlyazma və çap nüsxələri üzə-rində aparılan araşdırmalardan belə nəticəyə gəlmək olur ki, katib və xəttatların, eyni zamanda, filoloqların günahı ucundan «Divan»ın ayrı-ayrı hissələrində – misralarda və beytlərdə bir-birindən fərqlənən müxtəlif variantlar meydana gəlmişdir. Bu variantlardan hansının müəllif iradəsinə daha yaxın olduğunu müəyyənləşdirmək üçün əsərin ən mükəmməl orta əsr əlyazma nüsxələri əldə edilməli və onların üzərində ciddi tekstoloji araşdırmalar aparılaraq, «Divan»ın elmi-tənqidi mətni tərtib olunmalıdır.

«Əli ibn Əbu Talibin (ə) «Divan»ı əxlaqi-didaktik poeziya nümunəsi kimi» adlanan **üçüncü fəsil** üç bölmədən ibarətdir. **Bu fəslin birinci bölməsi** əxlaqi-didaktik ədəbiyyatın yaranma tarixi araşdırılır, dünya tarixində mənəvi dəyərlərin əsərlərdəki inikası xronoloji cəhətdən tədqiq edilmişdir, müxtəlif xalqlara və millətlərə məxsus mənəvi dəyərlərin insanlara aşılanmasında ədəbiyyatın əvəzsiz rolundan bəhs edilmişdir.

Bəşər yarandığı gündən bu günə qədər insan həyatının ayrılmaz hissəsini maddi tələbatla yanaşı, mənəvi tələbat – əxlaq təşkil etmişdir. İnsan təkcə təbiətin ona verdiyi nemətlər ilə kifayətlənməyib, öz hərəkət və davranışlarına da nəzarət etməyi, onları dəyərləndirməyi, bəyənməyi və pisləməyi bacara bilmişdir. Məhz bu bacarığının nəticəsində əxlaq və əxlaqi dəyərlər meydana gəlmişdir. İnsan saysız-hesabsız hərəkət və davranışlar içərisində daha düzgün yol seçmək üçün bəşəriyyətin topladığı və əsrlərdən-əsrlərə verdiyi təcrübəni qavramış, bunlardan ən yaxşısını özü üçün davranış tərzi hesab etmişdir. Vicdan, insaf, xeyir, ədalət, əxlaqi borc, xoşbəxtlik, şərəf, ləyaqət, təvazökarlıq, səmimiyyət və digər əxlaqi dəyərlər insanların gündəlik həyatlarında, qarşılıqlı əlaqə və münasibətlərində əsas yeri tutmuş, onların mövqeyinin və rəftarlarının ifadəçisinə çevrilmişdir.

Əxlaq elmi daha çox isə bədii ədəbiyyatda öz əksini tapmışdır. Ədəbiyyat nümunələrinin hər birində (şifahi və yazılı) ədibin hər hansı bir hadisənin təhkiyəsi ilə bərabər, onun insanlara gözəl hisslər, mənəvi dəyərlər aşılamaq cəhdini, hər hansı bir nəsihət və ya ibrət dərsi vermək məqsədi güddüyünü görürük. Yaşından asılı olmayaraq bədii əsəri mütaliə edən insanlar onlardan lazımi nəticələr çıxarır, atacaqları addımların sonrakı pis aqibətindən çəkinmiş olurlar.

Ərəb ədəbiyyatı tarixində bu xüsusiyyətlərə islam dininin gətirdiyi



yeniliklərdə görmək olar. Böyük və zəngin ərəb ədəbiyyatında islama qədər vəsf döyüş, qadın və şərabla bağlı idisə, islam meydana gəldikdən sonra mədəni və iqtisadi yüksəliş adamların estetik zövqlərində və mənəvi tələbatında da, o cümlədən bədii ədəbiyyatda da dəyişikliyə səbəb oldu. «Məhəmmədin insanları birləşdirə bilən dini və siyasi dühası sayəsindədir ki, ərəblər öz varlıqlarını idrak edərək cəhalət və hərc-mərclik vəziyyətindən çıxdılar və mədəniyyət tarixində öz yerlərini tutmaq üçün hazır oldular»[1]. Öz yaradıcılığı ilə etik-estetik, bədii və fəlsəfi fikrin inkişafında görkəmli ədib, filosof və siyasi xadim Əli ibn Əbu Talibin (ə) və onun «Divan»ının müstəsna rolu vardır.

Əli ibn Əbu Talib (ə) özü «Divan»ında seçilmiş yaxşı keyfiyyətləri on sütun olaraq əxlaqın tərkib hissəsi hesab etmiş və onları belə düzənləmişdir:

ان المكارم اخلاق مطهرة فالدين اولها و العقل ثانيه
و العلم ثالثها و الحلم رابعها و الجود خامسها و الفضل ساديها
و البرسا بعها و الصبر ثامنها و الشكر تا سعها و اللين باقيها

«Pak əxlaq ləyaqətli sifətdir. Onun birinci sütunu din, ikinci sütunu ağıldır. Üçüncü sütun elm və bilik, dördüncü helm (ədəb), beşinci səxavət, altıncı ləyaqətdir. Xeyirxahlıq yeddinci, səbir səkkizinci, şükranlıq doqquzuncu, mülayimlik onuncu sütundur»[2].

Əli ibn Əbu Talibin (ə) «Divan»ında ən gözəl insani keyfiyyətlər hesab etdiyi xüsusiyyətlərin sıralanmasına nəzər yetirərkən Hz. Əli (ə) dühasına təəccüb etməyə bilmirsən. Çünki bu keyfiyyətlərin ardıcıllığı, biri digərinə dayaq olan möhtəşəm bir körpünü xatırladır. Belə ki, dinə (I keyfiyyət) ağılla (II keyfiyyət) ibadət edənlər dinin birinci hökmü olan elmə (III keyfiyyət) meyilli olarlar. Həyat təcrübəsindən
ص٥٠٩ məlum olduğu kimi, elmli insanlar helmi (ədəb, mərifət) (IV keyfiyyət) üstün bilər, ədəbi olanlar dünyanın fani olduğunu bildiyi üçün dünya malını yığmaqdansa, paylayıb savab qazanmaq istəyər, səxavətli (V keyfiyyət) olarlar. Səxavəti üstün tutanlar ləyaqətini (VI keyfiyyət) heç bir mala, dövlətə dəyişməz, başqalarına kömək edər, onlara yaxşılıq etmək istəyər, xeyirxahlığı (VII keyfiyyət) özünə şüar edər. Xeyirxah insanlar sonda xeyirin qalib gələcəyini bilir və çətinlikləri səbirlə (VIII keyfiyyət) dəf edərlər. Səbirli insanların dilindən

[1] Masse Anri. İslam. Bakı: Azərbaycan Ensiklopediyasının Baş redaksiyası, 1992, s. 46.
[2] على بن ابى طالب. ديوان. "انتشرات نصايح"، ١٣٧٤،

şükür düşməz, şükranlıqdan (IX keyfiyyət) usanmazlar. Nəhayət, şükürlü insanlar məhz mülayim rəftarına (X keyfiyyət) görə hamının rəğbətini qazanarlar.

Əli ibn Əbu Talibin (ə) hamı üçün zəruri hesab etdiyi mənəvi dəyərlər bəşəriyyətin min illərlə topladığı əxlaqi dəyərlərin ən üstünü, seçilmişi və mütərəqqisidir. O, hətta onların ardıcıllığında da mükəmməllik nümayiş etdirmiş, biri-biri ilə əlaqəsini ən gözəl şəkildə əks etdirmişdir. Ayrı-ayrılıqda gözəl hesab olunan bu cəhətlərə hər kəs bu qaydada əməl edərsə, mükəmməl əxlaqa sahib və cəmiyyət içində hədsiz hörmət və məhəbbətə layiq ola bilər.

**Üçüncü fəslin ikinci bölməsi** Əli ibn Əbu Talibin (ə) övladları – İmam Həsən (ə) və İmam Hüseynə (ə) olan vəsiyyətlərinin şərhinə həsr edilmişdir. Elmi, əqidəsi və şəxsiyyəti etibarilə hər zaman örnək olan Əli (ə) öz övladlarının da mükəmməl təhsil və tərbiyə alması üçün onlara nəsihətlərində insanlara münasibətlərində ən gözəl davranış və rəftar qaydalarını vermişdir. Hz. Əli (ə) özü nəsihəti dünya maından üstün tutmuşdur. Peyğəmbərimiz (s) ona altı yüz min qoyun, altı yüz min qızıl, altı yüz min nəsihətdən hansını istədiyini soruşduqda Əli (ə) onlardan altı yüz min nəsihəti istədiyini söyləyir. Əlinin (ə) etik görüşlərində həyatın müxtəlif cəhətəri öz əksini tapmışdır. O, böyüklərə və yaşlılara hörmət etməyi əsas əxlaq norması kimi təbliğ edir, cavanları dünyagörmüş qocaların təcrübəsindən istifadə etməyə, böyüklərdən mərifət və həyat sirrini öyrənməyə çağırır. O, bu öyüdlərində bütün valideynlərə övladlarının tərbiyəsi üçün əlindən gələni etməyi də tövsiyə edir. «Heç bir ata öz övladına gözəl tərbiyədən daha üstün bir hədiyyə verə bilməz» hədisini rəhbər tutaraq öz övladlarına da, ilk növbədə, gözəl tərbiyə verməyi vacib sayır. Bu baxımdan Əli ibn Əbu Talibin (ə) «Divan»ında övladları – İmam Həsən (ə) və İmam Hüseynə (ə) olan nəsihətlərinun xüsusi yeri vardır.

Onun nəsihətləri həm dərindən düşünmək, həm də dərindən hiss etmək qabiliyyətini tərbiyə edir. İnsanların taleyini düşünmək, onları tərbiyələndirmək, gözəl əxlaq və kamil elm sahibi etmək, adamlara yaxşılıq etmək kimi dəyərlər Əlinin (ə) nəsihətlərinin qayəsini təşkil edir. Hz. Əlinin (ə) öz övlaqlarına verdiyi nəsihətlərdən hamı payını götürə bilər, çünki nəsihət, hikmət və zərb-məsəllərlə dolu olan bu «Divan»da o, öz arzu və istəklərini həyata keçirmək, nizama salmaq, gələcək arzularına çatmaq üçün müxtəlif yollar düşünmək, elm əldə etmək, savadlı olmaq kimi xüsusiyyətləri vermək məqsədi daşıyaraq



burada yazılanları təkcə yadda saxlamaq üçün deyil, cəmiyyətdə insanlarla ünsiyyətdə ən gözəl şəkildə təqdim etmək zərurətini İmam Həsən (ə) və İmam Hüseynlə (ə) bərabər, böyüyən nəslə də təlqin edir. Onlar böyüyüb əql və təcrübə sahibi olduqda uşaqlıqda əzbərlədikləri və yadda saxladıqları bu sözləri sonralaк tətbiq edərkən onlara nə qədər fayda verdiyini görəndə bu hikmətlərlə böyük bir sərvətə, bitməz-tükənməz bir xəzinəyə sahib olduqlarını dərk edəcəklər.

**Üçüncü fəslin üçüncü bölməsində** Əli ibn Əbu Talibin (ə) poetik irsinin bədii xüsusiyyətlərindən bəhs edilmişdir. Onun kəlamlarında söz adi mənadan çox, yüksək məna gözəlliyinə və ifadə tərzinə malikdir. Qəlbləri sözü ilə fəth edən bu xüsusiyyətləri ilə Əli (ə) sənətkarlığının məharətini sübut edərək sözlərindəki məna və kəsərin daimiliyini təmin etmişdir. Əli ibn Əbu Talibin (ə) sənətkarlıq qüdrəti ilə zamanını çox-çox qabaqlamış və geniş vüsət tapmış ədəbi irsi bu gün də insanlığa və insanlara düzgün yol göstərir, dünyaya mütərəqqi baxışlarla baxmağa və həyatı lazımınca dəyərləndirib yaşamağa sövq edir. Yaradıcılığının əsasını təşkil edən kamilliyin tərənnümü, fəzilətin təntənəsi onun qələmində ən gözəl şəkildə təqdimini tapmış, insan mənəviyyatı bədii sözün qüdrəti ilə yüksəkliklərə qaldırılmış, kəlamlarının ecazkar qüvvəsi məlhəmə çevrilib insanların qəlbinə mənəvi rahatlıq bəxş etmişdir.

**Nəticədə** tədqiqatçı bu elmi işdən əldə etdiyi nəticələri verir, əxlaqi-didaktik poeziyanın ən görkəmli nümayəndələrindən biri Əli ibn Əbu Talibin həm islam şəxsiyyəti, həm də ədib kimi Şərq ədəbiyyatına göstərdiyi böyük və əvəzsiz müsbət təsirini vurğulamışdır. Üzərində işlədiyi tədqiqat işindən əldə olunan nəticə bundan ibarətdir ki,

- Əli ibn Əbu Talibin (ə) «Divan»ı əxlaqi-didaktik poeziya nümunəsi kimi ərəb ədəbiyyatında, eləcə də dünya ədəbiyyatında özünəməxsus yeri olan bir poeziyadır.
- Əli ibn Əbu Talibin (ə) əxlaqi-didaktik fikirlərinin mənbəyi «Qurani-Kərim» və Peyğəmbər (s) hədisləridir.
- Əli ibn Əbu Talibin (ə) yaradıcılığı və onun əxlaqi-didaktik motivləri ehtiva edən hikmətli sözləri sonrakı dövr ortaq Şərq-müsəlman mədəniyyəti və ədəbiyyatı üçün misilsiz mənbə, islami dəyərlər toplusu olmuşdur.

Təbii ki, bu xüsusiyyətlərin hamısı eyni vaxtda bir insanda cəm ola bilməz. Lakin eyni zamanda bütün bu xüsusiyyətlərə sahib olmağa cəhd etmək hər bir insanın öz əlindədir. Bu çələng insanların ka-

mil bir şəxsiyyət olmaları, bütün ömrü boyu başıuca, alnıaçıq, firavan, xoşbəxt həyat sürmələri üçün onlara təqdim edilmiş ən gözəl zəmanətdir. Sonu insanlığın ən yüksək, incə nöqtəsi mülayimlik olan və mükəmməl mənəviyyatı təşkil edən bu dəyərlər Əli ibn Əbu Talibin (ə) «Divan»ını qiymətinə görə heç bir ölçüyə sığışdırmır və elə bu xüsusiyyətlərinə görə Əli ibn Əbu Talibin (ə) «Divan»ına üz tutanlar dünyanın ən zəngin xəzinəsini əldə etdiyinə, ən böyük qazanc, mənfəət götürdüklərinə əmin olurlar və şübhəsiz ki, bundan sonra da olacaqlar.

Dissertasiya işinin əsas məzmunu adları aşağıda qeyd edilmiş məqalələrdə əksini tapmışdır:

1. Əli ibn Əbu Talibin (ə) «Divan»ında İmam Həsən (ə) və İmam Hüseynə (ə) nəsihətləri. Kültür Evreni. Üç ayda bir yayımlanan uluslararası sosial bilimler dergisi. Ankara: yay, 2009, №3. s. 33-39/ məqalə.
2. Əli ibn Əbu Talibin (ə) «Divan»ının əlyazmasının tekstoloji tədqiqi. Filologiya məsələləri. Bakı: 2009, №9. s. 241-250/ məqalə.
3. Əli ibn Əbu Talibin (ə) «Divan»ının əlyazma nüsxələrinin elmi-paleoqrafik xüsusiyyətləri. Filologiya məsələləri. Bakı: 2009, № 11. s. 422-432/ məqalə.
4. Əli ibn Əbu Talibin (ə) yaradıcılığında mənəvi keyfiyyətlərin tərənnümü. Filologiya məsələləri. Bakı: 2010, № 1. s. 323-331/ məqalə.
5. Əli ibn Əbu Talibin (ə) «Nəhcül-bəlağə» əsərinin tərtibi və tərkib hissələri (I məqalə). Şərq filologiyası məsələləri, №5, Bakı: «Əli» nəşriyyatı, 2010. s. 131-143 / məqalə
6. Əli ibn Əbu Talibin «Divan»ının bədii xüsusiyyətləri. Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. (XII Respublika elmi konfransının materialları) Bakı: 2011. səh. 207-217 / məqalə
7. Этика в художественной литературе. Культура народов Причерноморя (научный журнал). Симферополь, Украина: № 199, 2011, стр. 86-88/ məqalə
8. Благосклонность к наукам и знаниям в творчестве Али ибн Абу Талиба. Киев, Украина: «Гилея», выпуск № 60, 2012, стр. 414-418 / məqalə





**Ш. А. Меджидова**

## Этико-дидактические мотивы в «Диван»е Али ибн Абу Талиба (600-661)

## РЕЗЮМЕ

Диссертация посвящена этико-дидактическим мотивам в «Диван»е Али ибн Абу Талиба (600-661), одного из крупных представителей классической арабской литературы. Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, исследуется степень изученности этой темы, определяются цели и задачи диссертации, излагаются новизна и практическая ценность темы.

В первой главе называемой «Эпоха, жизнь и творчество Али ибн Абу Талиба» исследуются события, произошедшие во время возникновения ислама, а также предпринимается попытка пролить свет на произведения, спорные на авторство Али ибн Абу Талиба,

Во второй главе исследуются научно-палеографические данные четырех рукописей «Диван»а Али, хранимых в фонде Института Рукописей НАНА им.М.Физули. Чтобы определить дату составления этого «Диван»а были рассмотрены рукописи и их писари в библиотеках разных стран мира. Проведено исследование разных источниковедческих знаков, используемых в рукописях, их обложек, почерков и даты переписки, в то же время проведено сравнительное исследование этих рукописей.

В третьей главе, называемой «Этико-дидактические мотивы в «Диван»е Али ибн Абу Талиба» прослеживается история этики, ее проникновение в литературу, возникновение этико-дидактической литературы в хронологическом порядке. В «Диван»е выдающийся представителя этой поэзии Али ибн Абу Талиба последуются бейты, охватывающие этико-дидактические мотивы и идейные направления стихов, повествуется о десяти качествах, воспринимаемых Али ибн Абу Талибом как лучшее моральные ценности.

**Sh. A. Majidova**

**Ethic-didactic motives in the “Diwan”**
**by Ali ibn Abu Talib (600-661)**

**Summary**

The dissertation is devoted to the ethical-didactic motives in the «Diwan» by Ali ibn Abu Talib (600-661), one of the greatest writers of the classic arabic literature. The dissertation consists of the introduction, three chapters, conclusion and the list of the used literature.

In the introduction the actuality of the subject is explained, the extert of the studies is investigated, the account of scientific novelty and practical value of this work is also given.

In the first chapter, named «The epoch, life and literary activity of Ali ibn Abu Talib», the events of the epoch of Ali are treated, and also tried to throw light on the works, which authority is proposed to Ali ibn Abu Talib.

In the second chapter scientific-paleographical feachers of the four manuscripts of the Diwan, which are kept in the fond of the Institute of the Manuscripts of the National Academy of Sciences of Azerbayjan are investigated, at the same time it is conducted their clearks, the source learning signs, used in the manuscripts, covers, handwritings and dates of the copying. In order to determine the date, when this Diwan was compiled, the manuscripts, kept in the libraries of the different countries of the world were investigated.

In the third chapter, named «Ethic-didactic motives in the «Diwan» by Ali ibn Abu Talib» the history of ethics is treated, its penitration into the literature is observed, occurance in the chronogical order. The beyts, including ethic-didaktic motives and idealogical turn are treated. There is annaration about ten qualities, purserted by Ali ibn Abu Talib as the best moral values.



**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ**
**им.акад. З.М.БУНИЯТОВА**

***На правах рукописи***

**ШАХЛА АВЯЗ кызы МЕДЖИДОВА**

**ЭТИКО-ДИДАКТИЧЕСКИЕ МОТИВЫ**
**В «ДИВАН» АЛИ ИБН АБУ ТАЛИБА**

**5718.01 Мировая литература (арабская литература)**

# АВТОРЕФЕРАТ

**Диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ-2013**